## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

## Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:**

**"İqtisadiyyat" kafedrasının**
**müdiri: i.ü.f.d., dos.S.İ.Hümbətova**
**2025/2026-cı il**

# Azərbaycanın Xarici Siyasəti
# FƏNNİ ÜZRƏ İŞÇİ TƏDRİS PROQRAMI
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **01095** |
| **Fənnin növü:** | **Məcburi** |
| **Tədris ili:** | **2025-2026** |
| **Fənnin tədris semestri:** | **Payız** |
| **Fakültə:** | **İqtisadiyyat və İdarəetmə** |
| **Tədris yükü:** | **45 saat (mühazirə/məşğələ-30/15)** |

## 1.Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:**

**E-mail ünvanı:**

**İş telefonu:  012 564 37 06**

**Tələbələr üçün məsləhət saatları:**

**<u>III. Tələb olunan dərsliklər və dərs vəsaitləri</u>**
**Əsas ədəbiyyat:**

**<u>Əsas ədəbiyyat</u>:**

1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il
2. Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası. 23may 2007-ci il.
3. Azərbaycanın xarici siyasəti - 2008: sənədlər məcmuəsi. I hissə.
4. Bakı: GARISMA MMS, 2009, 656 s.
5. Azərbaycanın xarici siyasəti - 2010: sənədlər məcmuəsi. I hissə.
6. Bakı: Cool Print, 2013, 1032 s.
7. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu/. Bakı: Poliart MMC, 2017, 904 s.
8. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı: Azərbaycan, 2005, 751 s.
9. Seyidova S.M. Azərbaycanın beynəlxalq əlaqələri (1920-1930- cu illər), Bakı: Diplomat, 1998, 147 s.
10. Qasımov M. Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. Bakı: Adiloğlu, 2001, 405
11. Qasımov M. Xarici dövlətlər və Azərbaycan. Bakı: Qanun, 1998, 356 s.
12. Qasımovlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991- 2003) I Hissə, Bakı: Mütərcim, 2015, 647 s. (https://ebooks.az/book_UfenJvaE.html)
13. Qasımovlı M. Azərbaycan Respublikasının xarici siyasəti (1991- 2003) I Hissə, Bakı: Mütərcim, 2015, 647 s.
14. 44 Günlük Vətən Müharibəsi: mülahizə və nəticələr. Bakı 2021
15. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri. (1991-2016-cı illər)
16. Ə.Həsənov. Azərbaycanın geosiyasəti. Dərslik. Bakı 2015

**<u>Əlavə ədəbiyyat</u>:**

1. Abdullayev B.M., Bayramov Z.R., İmanova S.M. Azərbaycan və ATƏT. Ali məktəblər üçün dərslik. Bakı: İqtisad Universitetinin nəşriyyatı, 2010, 100 s.
2. Ağayev A. Azərbaycanın Avropa Şurası ilə əlaqələri tarixindən // Azərbaycan Parlamenti və beynəlxalq təşkilatlar. Bakı, 2004, 420 s.
3. Avropa Şurası və Azərbaycan. Bakı: Sərbəst düşüncə, 2000. 47 s.

4. Azərbaycan və Avropa Şurası. Bakı: Avrasiya Press, 2009, 133s. http://hajigabul.cls.az/front/files/libraries/1093/books/65429842 7.pdf
5. Azərbaycan-NATO: Tərəfdaşlıqdan başlanan yol (1994-2009). Bakı: 2009, Apastrof çap evi, 342 s.
6. Azərbaycan Parlamenti və beynəlxalq təşkilatlar. Bakı: Azərbaycan Respublikası Milli Məclisin nəşri, 2004, 420 s.
7. Azərbaycan vahid və bölünməz Avropada: 2001-2011. Bakı: Poligraphıc production, 2011, 436 s.
8. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi və Beynəlxalq Məhkəmənin Statutu
9. Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: Tuna, 1998, 138 s.

**İnternet resursları:**

1. www.president.az
2. http://www.mns.gov.az/img/3766779- me02.%20Milli_Tehlukesizlik_Konsepsiyasi.pdf
3. Avropa Şurası, http://mfa.gov.az/?options=content&id=857
4. Azərbaycan - Avropa Birliyi münasibətləri. http://azerbaycanli.org/az/page438.html
5. Azərbaycan beynəlxalq arenada. http://files.preslib.az/projects/republic/az/azr2_4.pdf Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi. Prezident kitabxanası
6. Azərbaycan və BMT münasibətləri. http://mfa.gov.az/content/751, Azərbaycan haqqında.
7. http://www.az.undp.org/content/azerbaijan/az/home/countryinfo
8. Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əlaqələrinin hüquqi çərçivəsi.
9. http://www.economy.gov.az/index.php?option=com_content&view=article&id=1038&Itemid=183&lang=az
10. Azərbaycan Respublikasının NATO ilə əməkdaşlığı. http://www.mod.gov.az/beynalxalq/4.html
11. Bakıda XXI Beynəlxalq Xəzər neft və qaz sərgisinin açılışında İlham Əliyevin nitqi. http://www.president.az/articles/12019
12. Madrid prinsipləri. www.azadliq.org/content/article/1779183.html

Hər bir mövzu üzrə müəllimin mühazirə mətnləri və təqdimatları elektron kabinetə yerləşdirilir. Hər bir mövzu ilə bağlı müəllim əlavə olaraq xüsusi ədəbiyyat təklif edə bilər.

**IV. Fənnin təsviri**

**Azərbaycanın xarici siyasəti** dövlətin xarici məsələlərdə Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalara sadiqlik üzərində qurulmuşdur. Azərbaycanın müstəqilliyinə qarşı yönələn bütün təhlükələrin aradan qaldırılması, milli təhlükəsizliyin təmin edilməsi, Ermənistan tərəfindən həyata keçirilən separatizm və işğalçılıq siyasətinin qarşısının alınması və bu məqsədlə bölgədə və dünyada müttəfiqlərin qazanılması; region dövlətlərlə maraqların üst-üstə düşməsini təmin etmə və qarşılıqlı əməkdaşlıq çərçivəsində hərəkət etmək - bütün bunlar bu regionun həssas olmasından və digər super güc sayılan ABŞ və Rusiyanın bölgədəki ortaq maraqlarını nəzərə alaraqdan həyata keçirilir. Məhz, bu baxımdan balanslaşdırılmış siyasətin yürüdülməsi hal-hazırda məqsədəuyğun hesab edilir. Çünki bu regionda hər hansı bir gərginliyin və ya münaqişənin yaranması, ilk növbədə, böyük enerji ehtiyatlarına və layihələrinə malik olan Azərbaycan üçün arzu olunmaz haldır. Belə hallarda həmçinin ölkənin suverenliyi və milli təhlükəsizliyi təhdid altına düşmüş olur. Bu, nəinki Azərbaycan üçün, həmçinin regionun digər qonşu dövlətləri üçün də səciyyəvi xarakter daşıyır.

**Bu baxımdan "Azərbaycanın xarici siyasəti" fənninin təhsil proqramının strukturunda yeri və rolu** müxtəlif ixtisaslar üzrə bakalavr və ya magistratura pillələrində mühüm əhəmiyyət kəsb edir. Xüsusilə beynəlxalq münasibətlər, siyasi elmlər, regionşünaslıq, hüquq, tarix və ictimai elmlərlə bağlı digər ixtisaslarda bu fənn vacib nəzəri və praktik biliklər qazandırmaq məqsədi daşıyır.

**a) Elmi-nəzəri biliklərin formalaşdırılması:**

- Xarici siyasət nəzəriyyələrinin öyrənilməsi.
- Azərbaycan Respublikasının müstəqillikdən sonra formalaşan xarici siyasət strategiyalarının təhlili.
- Diplomatik fəaliyyətin əsas prinsiplərinin mənimsənilməsi.

**b) Praktiki və analitik bacarıqların inkişafı:**

- Beynəlxalq proseslərə Azərbaycan prizmasından yanaşma qabiliyyəti.
- Münaqişələrin tənzimlənməsi və regional əməkdaşlıqların qiymətləndirilməsi.
- Xarici siyasət sənədlərinin və dövlət strategiyalarının analizi.

**c) Vətəndaşlıq mövqeyinin formalaşdırılması:**

- Tələbələrdə milli maraqların qorunması və dövlətçilik prinsipləri barədə aydın anlayışın formalaşdırılması.
- Qarabağ məsələsi, enerji siyasəti və regiondakı geosiyasi dəyişikliklər kontekstində Azərbaycanın mövqeyinin öyrənilməsi.

"Azərbaycanın xarici siyasəti" fənni tələbələrə həm nəzəri, həm də praktik səviyyədə milli maraqları anlamaq, təhlil etmək və şərh etmək bacarığı qazandırır. Bu, onların gələcəkdə diplomatiya, dövlət idarəçiliyi, tədqiqat və təhlil sahələrində səmərəli fəaliyyət göstərmələrinə zəmin yaradır.

## V. Fənin məqsədi və vəzifələri

Fənnin tədrisində məqsəd müstəqillik əldə edən Azərbaycan xalqının dövlətçilik tarixində mühüm mərhələ hesab olunan Azərbaycan Demokratik Respublikasının xarici siyasəti, məqsədləri və prinsipləri haqda, Sovet işğalı dövründə Azərbaycanın xarici siyasət institutları və onların

fəaliyyəti, Azərbaycan Sovet Sosialist Respublikasının xarici siyasəti haqda, müstəqilliyin bərpasından sonra Azərbaycan Respublikasının xarici siyasət prinsipləri, nəzəri-konseptual əsasları, strukturu, fəaliyyət mexanizmləri, resursları və vasitələri, prioritetləri haqda biliklər verməyi nəzərdə tutur.

Gənc nəslin əsas aparıcı dəstələrindən biri olan tələbələrdə siyasət, siyasi münasibətlər və mənafelər haqqında aydın təsəvvür yaratmaq, cəmiyyətin siyasi sisteminə daxil olan struktur elementləri haqqında onları məlumatlandırmaqdır. Bütövlükdə müasir dünyada dövlətlərarası münasibətlərdə baş verən proseslər haqqında tələbələrdə ümumi təsəvvür yaratmaqdır. Digər tərəfdən, müstəqil Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin əhəmiyyətini və müasir dövrdə cəmiyyətin həyatına beynəlxalq münasibətlərin təsirinin artmasını tələbələrin nəzərinə çatdırmaqdır. Eyni zamanda ayrı-ayrı dövlətlərin xarici siyasət fəaliyyətinin sistemli təhlilinə xüsusi diqqət yetirilir.

## VI. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, quiz'lərin, debatların keçirilməsi, işgüzar oyunlar, xüsusi nümunələrin (case-study) öyrənilməsi, sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir. Dərsdə keçiriləcək mövzular bir-birləri ilə əlaqəli olduğundan, tələbələrin işlənmiş mövzuları yenidən təkrar etməsi məqsədə uyğundur. Müəllimin təmin etdiyi təqdimat, mühazirə, kitab və ya test əsasında tələbələr fənn üzrə təhsilini təkmilləşdirir, yeni biliklərə sahib olur. Dərsi yaxşı izləməklə birlikdə, dərs xaricində də, tələbələrin əlaqəli mövzuları öz aralarında müzakirə etməsi ən effektiv üsullardan biridir. İstər keçmiş mövzular üzərində çalışarkən, istərsə də gələcək mövzuları hazırlayarkən, tələbələr ehtiyac duya biləcəyi əlavə məlumatları, əlaqədar internet ünvanlarını (beynəlxalq və yerli media mənbələri) həm dərsi tədris edən müəllimin köməyi ilə, həm də müstəqil təhlil şəklində əldə edə bilər. Həmçinin tələbələrə xarici və yerli ədəbiyyatda, kitablarda və ya iqtisadiyyat jurnallarında yer alan iqtisadi yenilikləri izləmələri tövsiyə edilməkdədir.

## VII. Kursun nəticələri

"Azərbaycanın xarici siyasət fənni" fənninin tədrisi tələbə gənclərdə müasir beynəlxalq münasibətlər haqqında obyektiv təsəvvürün yaranmasına və onların vətənə məhəbbət ruhunda tərbiyəsinə yaxından kömək edəcəyi şübhəsizdir. Bu fənn vasitəsilə tələbələrin beynəlxalq münasibətlər tarixi üzrə geniş və dərindən bilgi əldə edəcək, analitik düşünmə bacarıqlarını inkişaf etdirəcəklər.

Bilməlidirlər:

- Xarici siyasət haqqında nəzəri yanaşmaları, məqsəd və vəzifələri;
- Müasir dünyada geosiyasi yanaşma;
- Beynəlxalq müstəvidə baş verən siyasi prosesləri;
- Dövlətlərin, birliklərin, hökumətlərarası və qeyri-hökumətlərarası təşkilatların qarşılıqlı münasibətlərini təhlil etməyi;
- Azərbaycan Respublikasının müasir beynəlxalq münasibətlər sistemində yerini və rolunu, xarici siyasətini düzgün izah etməyi, qiymətləndirməyi;
- Regionda baş verən xarici siyasi prosesləri düzgün qiymətləndirməyi;
- Dövlətlərin xarici siyasətini izləməyi və qiymətləndirməyi.

## VIII. Prerekvizitlər:

Bu fənn müstəqil olduğu üçün fənnin tədrisindən öncədən və sonra tədris olunacaq fənnlər bir-birini təkrarlamır və üst-üstə düşmür.

**IX. Fənni mühazirə mövzuları:**

Fənn 45 saat olmaqla 15 mühazirə mövzusundan ibarətdir.

1. Mövzu 1. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, diplomatik addımları və süqutu
2. Mövzu 2. Müstəqil Azərbaycanın Beynəlxalq münasibətlər sisteminə qatılması və əsas xarici siyasət prinsipləri
3. Mövzu 3. Azərbaycanın Geopolitikası (qlobal, regional və daxili baxımından siyasi, iqtisadi, mədəni və hərbi amillər)
4. Mövzu 4. Azərbaycanın xarici siyasətində Qarabağ münaqişəsi
5. Mövzu 5. Azərbaycan xarici siyasətində 44 günlük Vətən müharibəsi və yeni geosiyasi vəziyyət
6. Mövzu 6. Azərbaycanın xarici siyasətində enerji amili
7. Mövzu 7. Azərbaycan –Türkiyə münasibətləri
8. Mövzu 8. Azərbaycan –Rusiya münasibətləri
9. Mövzu 9. Azərbaycan –İran münasibətləri
10. Mövzu 10. Azərbaycan –Gürcüstan münasibətləri
11. Mövzu 11. Azərbaycan-ABŞ münasibətləri
12. Mövzu 12. Azərbaycanın xarici siyasətində Avropa
13. Mövzu 13. Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya
14. Mövzu 14. Azərbaycanın xarici siyasətində Uzaq Şərq və Asiya
15. Mövzu 15. Azərbaycan xarici siyasətində Orta Şərq

**X. Fənnin mühazirə mətnləri**

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında “Virtual universitet” bölməsində yerləşdirlir.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| s/s | Mövzuların adı | Mövzunun əsas məzmunu | Saat | Mühazirə tarixi |
|---|---|---|---|---|
| 1 | Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, diplomatik addımları və süqutu | AXC yaranması ərəfəsində beynəlxalq münasibətlər, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və diplomatik addımları, AXC-nin ərazi bütövlüyü uğrunda mübarizəsi, Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin iştirakı, Azərbaycan Xalq Cümhuriyyətinin süqutu-Aprel işğalı | 2 | |
| 2 | Müstəqil Azərbaycanın Beynəlxalq münasibətlər | Azərbaycanın beynəlxalq münasibətlər sisteminə qatılması, Azərbaycanın xarici siyasətinin əsas vəzifələri, Azərbaycanın xarici siyasətinin əsas prinsipləri, Azərbaycanın xarici siyasətinin əsas | 2 | |

| | | | | |
|---|---|---|---|---|
| | sisteminə qatılması və əsas xarici siyasət prinsipləri | istiqamətləri, beynəlxalq təşkilatlarda tanınma prosesi, Azərbaycan yenidən müstəqilliyini bərpa etdikdən sonra atdığı ilk addımlar | | |
| **3** | Azərbaycanın Geopolitikası (qlobal, regional və daxili baxımından siyasi, iqtisadi, mədəni və hərbi amillər) | Azərbaycan Respublikasının inkişaf xüsusiyyətləri, əsas geosiyasi vəzifələri və perspektivləri, Azərbaycanın geosiyasi statusu və müasir geosiyasi fəaliyyət kodeksi, transmilli dünya güclərinin və yerli dövlətlərin Xəzər hövzəsi və Cənubi Qafqazdakı geoiqtisadi maraqları və fəaliyyətinin xarakteristikası, Cənubi Qafqazda yeni geosiyasi reallıqlarda regional təhlükəsizlik | **2** | |
| **4** | Azərbaycanın xarici siyasətində Qarabağ münaqişəsi | Azərbaycan torpaqlarının ermənilər tərəfindən işğalı. Atəşkəsin imzalanması, ATƏT-in sammitləri. Minsk qrupunun münaqişənin nizamlanmasına dair təklifləri, müasir dövrdə Azərbaycan Respublikasının münaqişənin həlli istiqamətindəki diplomatik fəaliyyəti | **2** | |
| **5** | Azərbaycan xarici siyasətində 44 günlük Vətən müharibəsi və yeni geosiyasi vəziyyət | 44 Günlük Vətən Müharibəsi, Şanlı Zəfər Tariximiz, Antiterror əməliyyatları, Böyük Qayıdış Proqramı, 10 noyabr 2020-ci il tarixində imzalanan üçtərəfli bəyanat və əsas şərtləri, yeni geosiyasi reallıqlarda Azərbaycanın xarici siyasət prioritetləri | **2** | |
| **6** | Azərbaycanın xarici siyasətində enerji amili | Enerji amilinin Azərbaycanın xarici siyasətində tutduğu mövqe, Azərbaycanın Enerji Strategiyasında Heydər Əliyevin rolu, Azərbaycanın Enerji Strategiyası və Enerji Strategiyasında xarici əməkdaşlıq, Azərbaycanın gələcəyə yönəlik enerji strategiyası | **2** | |
| **7** | Azərbaycan – Türkiyə münasibətləri | Türkiyənin Cənubi Qafqazda geosiyasi və geostrateji maraqları, Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin tarixi və bu günü, Türkiyə Azərbaycanın əsas strateji tərəfdaşı kimi, Şuşa Bəyannaməsi, regional və qlobal perspektivlər | **2** | |
| **8** | Azərbaycan –Rusiya münasibətləri | SSRİ-nin dağılmasından sonra ikitərəfli əlaqələrin formalaşması, Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin tarixi və bu günü, Cənubi Qafqazda Rusiyanın maraqları, MDB kontekstində əməkdaşlıq, 2020-ci il 10 noyabr tarixində Rusiyanın vasitəçiliyi ilə imzalanan üçtərəfli bəyanat, Azərbaycan və Rusiya arasındakı strateji tərəfdaşlığı təmin edən mühüm sənədlər | **2** | |
| **9** | Azərbaycan –İran münasibətləri | İranın Cənubi Qafqazda geosiyasi və geostrateji maraqları, İran-Azərbaycan ikitərəfli münasibətlərinin tarixi, müasir dövrdə münasibətlərin spesifik xüsusiyyətləri, hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq, enən və yüksələn xətlərlə inkişaf edən münasibətlər | **2** | |
| **10** | Azərbaycan – Gürcüstan münasibətləri | Azərbaycan-Gürcüstan münasibətlərinin tarixi aspektləri, Azərbaycan-Gürcüstan geosiyasi tərəfdaşlığının əsas şərtləri və regional tələbləri, Qarabağ münaqişəsinə Gürcüstanın mövqeyinin | **2** | |

| | | | | |
|---|---|---|---|---|
| | | dövrlər üzrə səciyyəvi xüsusiyyəti, Gürcüstan Azərbaycanın etibarlı tərəfdaşı kimi | | |
| **11** | Azərbaycan-ABŞ münasibətləri | ABŞ-ın Cənubi Qafqazda geosiyasi və geostrateji maraqları, Azərbaycan-ABŞ münasibətlərinin inkişafında H.Əliyevin xidmətləri, Müasir dövrdə Azərbaycan-ABŞ ikitərəfli əlaqələri, Ağ Evdə 8 avqust 2025-ci ildə imzalanan sənədlərin əhəmiyyəti, D.Trampın yenidən hakimiyyətə gəlməsi və normallaşma | **2** | |
| **12** | Azərbaycanın xarici siyasətində Avropa | Avropa geosiyasi faktor kimi, Azərbaycan-Böyük Britaniya münasibətlərinin əsas istiqamətləri, Azərbaycan-Fransa münasibətlərinin əsas istiqamətləri, Azərbaycan-Almaniya münasibətləri | **2** | |
| **13** | Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya | Mərkəzi Asiya ölkələri müasir dünya siyasətində, Azərbaycan Mərkəzi Asiya dövlətləri ilə xarici əlaqələri müasir dövrdə, Azərbaycan Qazaxıstan münasibətləri, Azərbaycan Qırğızıstan münasibətləri, Azərbaycan Türkmənistan münasibətlərinin əsas istiqamətləri | **2** | |
| **14** | Azərbaycanın xarici siyasətində Uzaq Şərq və Asiya | Azərbaycan-Çin münasibətlərinin tarixi aspektləri, müasir dövrdə Çin-Azərbaycan münasibətlərinin inkişaf mərhələləri, Azərbaycanın xarici siyasəti: Şərqə və Asiyaya doğru, Azərbaycan-Yaponiya münasibətlərinin əsas istiqamətləri. Azərbaycan-Pakistan münasibətləri | **2** | |
| **15** | Azərbaycan xarici siyasətində Orta Şərq | Yaxın və Orta Şərq dövlətlərinin xarakteristikası və Azərbaycanla münasibətləri, Səudiyyə Ərəbistan və Azərbaycan münasibətləri, BƏƏ və Azərbaycan münasibətləri, Suriya və Azərbaycan münasibətləri, İraq və Azərbaycan münasibətləri, müasir dövrdə Azərbaycanın Yaxın Şərq siyasəti | **2** | |
| | **Yekun:** | | **30** | |
| | | **Final imtahanı** | | |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq

qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

**FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ** ***(Əyani təhsilalma forması üzrə)***

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

$$B = (((b1+b2+b3+...+bn)/s)*m)/10$$

**Burada,**

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bir fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların hər bir fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada test və ya yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə test və ya yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən ara qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 30 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Qabiliyyət tələb edən fənlər üzrə ara qiymətləndirmə semestr ərzində yerinə yetirilən və hər biri 5 bal üzərindən qiymətləndirilən 6 fərdi işin (hər ay ərzində 2 iş olmaqla) qiymətləndirilməsi əsasında təmin olunur.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat və magistratura səviyyələri üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir. Qiyabi təhsilalma forması üzrə isə davamiyyət səviyyəsindən asılı olaraq maksimum 10 bal verilir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bütün mövzular üzrə tərtib edilən testlər, yazılı və ya şifahi imtahan sualları (qabiliyyət tələb edən fənlər istisna olmaqla) əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

Test üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı hər bir fənn üzrə təhsilalanlara 50 test təqdim olunur. Testlərin hər biri 1 balla qiymətləndirilir və səhv cavablandırılmış testlər düz cavablara təsir etmir. Yazılı üsulunda (qabiliyyət tələb edən fənlər istisna olmaqla) keçirilən aralıq qiymətləndirmə zamanı isə hər bir fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA QƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| **91-100 bal** | **əla** | **A** |
|---|---|---|
| **81-90 bal** | **çox yaxşı** | **B** |
| **71-80 bal** | **yaxşı** | **C** |
| **61-70 bal** | **kafi** | **D** |
| **51-60 bal** | **qənaətbəxş** | **E** |
| **51 baldan aşağı** | **qeyri-kafi** | **F** |

***QEYD:*** İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.